# AZƏRTAC və TASS arasında əməkdaşlıq müasir dövrün çağırışlarına uyğunlaşdırılır

Noyabrın 20-də AZƏRTAC-ın baş direktoru Aslan Aslanov Rusiyanın TASS agentliyinin fotoinformasiya xidmətinin rəhbəri Konstantin Leyferlə görüşüb. AZƏRTAC xəbər verir ki, Konstantin Leyfer Bakıya iki informasiya agentliyi arasında təcrübə mübadiləsi çərçivəsində səfər edib.

Aslan Aslanov görüşdə vurğulayıb ki, AZƏRTAC ilə TASS arasında münasibətlər yüksək səviyyədədir və onlar beynəlxalq informasiya təşkilatları çərçivəsində bir-birinə hərtərəfli dəstək verir. Agentliklər fotoinformasiya mübadiləsi sahəsində də uğurla əməkdaşlıq edirlər. Bu il iyun ayında Bakıda keçirilmiş Birinci Avropa oyunlarından çəkilmiş fotomaterialların qarşılıqlı mübadiləsi buna yaxşı nümunədir.

"Təsadüfi deyil ki, Asiya-Sakit Okean Xəbər Agentlikləri Təşkilatı (OANA) çərçivəsində keçirilmiş "Mükəmməlliyə görə mükafat" müsabiqəsinin beş ən yaxşı layihəsi sırasına Yonhap, Sinxua və Anadolu agentlikləri ilə yanaşı, AZƏRTAC-ın və TASS-ın layihələri də daxil olub. Həmin müsabiqənin nəticələri OANA-nın İcraiyyə Komitəsinin noyabrın 16-da Seulda keçirilmiş iclasında elan edilib", - deyə baş direktor vurğulayıb.



TASS agentliyinin fotoinformasiya xidmətinin rəhbəri Konstantin Leyfer müasir və qədim memarlıq ənənələrinin ahəngdar şəkildə birləşdiyi Bakıda müşahidə etdiyi möhtəşəm dəyişikliklərdən danışaraq deyib ki, Azərbaycan bu heyrətamiz nəticələrə ölkə rəhbərliyinin məqsədyönlü siyasəti sayəsində nail olub.

Rusiyanın və Azərbaycanın aparıcı informasiya agentlikləri olan TASS və AZƏRTAC arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edən K.Leyfer fotoinformasiya mübadiləsinin, bu sahədə qazanılmış təcrübənin bölüşdürülməsinin vacibliyini də diqqətə çatdırıb.

Söhbət zamanı bildirilib ki, 2016-cı il noyabr ayında OANA-nın Bakıda keçiriləcək Baş Assambleyasında bu təşkilata sədrlik TASS-dan AZƏRTAC-a keçəcək. AZƏRTAC, eyni zamanda, 2019-cu ilədək Dünya Xəbər Agentlikləri Konqresinə də sədrlik edəcək.

Görüşdə xüsusi vurğulanıb ki, sosial media bumu şəraitində kəskin rəqabətə davam gətirmək, istifadəçi auditoriyasını itirməmək üçün əməkdaşlığı dərinləşdirmək, müştərək layihələr həyata keçirmək, vaxtaşırı təcrübə mübadiləsi aparmaq zəruridir. İki agentlik arasında əməkdaşlığın müasir dövrün bu çağırışlarına uyğunlaşdırılmasını həyat özü tələb edir

Həmin gün TASS ilə AZƏRTAC arasında təcrübə mübadiləsi haqda saziş çərçivəsində Konstantin Leyfer Azərbaycan Dövlət İnformasiya Agentliyində fotoinformasiyaya dair ustad dərsi keçib. Məşğələ zamanı TASS agentliyinin aparıcı fotomüxbirlərinin işlərindən ibarət slayd-şou nümayiş etdirib, materialın təqdim edilməsinin incəliklərindən danışıb.

AZƏRTAC-ın əməkdaşları onları maraqlandıran suallarla qonağa müraciət edib, müasir fotoxəbər xidməti barədə fikir mübadiləsi aparılıb .

Xatırladaq ki, Konstantin Leyfer Bakı ilə tanışlıq zamanı Xalça Muzeyində, Dövlət Bayrağı Meydanında, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğuda olub. Görüşdə də qeyd etdiyi kimi, gördükləri və Azərbaycan paytaxtının müasir siması, burada müşahidə etdiyi inkişaf onda unudulmaz təəssürat yaradıb.